

*“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır”.*

**Heydər Əliyev**

# XIZI




Qəzet 1990-cı ildən çıxır.
№ 1-2 (203-204) 327-328
Yanvar-fevral 2025-ci il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti


# İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



**Əziz həmvətənlər.**

2024-cü ili uğurla başa vururuq. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapmışdır. Ölkəmiz inamla inkişaf etmişdir. Ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artmışdır. Ölkə iqtisadiyyatında müsbət inkişaf var, hərbi gücümüz artıb. Ölkəmizdə sabitlik hökm sürür. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşamışdır.

Bu gün dünyada baş verən hadisələr hamımızın gözünün qarşısındadır. Yeni müharibələr, qarşıdurmalar, münaqişələr alovlanır. Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmalar davam edir. Azərbaycan isə sülh, əmin-amanlıq, təhlükəsizlik və sabitlik şəraitində yaşayır. Əminəm ki, bundan sonra sabitlik və əmin-amanlıq əbədi olacaqdır.

2024-cü ildə bir çox önəmli hadisələr baş vermişdir. Onların arasında ən vacib məsələ Qazax rayonunun 1990-cı illərin əvvəllərində işğal altına düşmüş dörd kəndinin işğaldan azad edilməsi idi. Bu kəndlər haqqında biz heç vaxt öz mövqeyimizdən bir addım belə geri atmamışdıq. Bu kəndləri biz heç vaxt unutmamışdıq. Sadəcə olaraq, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasının öz məntiqi var idi. Hər şeyi, bütün məsələləri biz inamla və ardıcıllıqla həll etdik. Birinci mərhələdə Qarabağın və Şərqi Zəngəzurun böyük hissəsini 2020-ci ildə Vətən müharibəsində işğalçılardan azad etdik. İşğal altında qalan hissə keçən il antiterror əməliyyatı nəticəsində işğalçılardan azad edildi və Azərbaycan öz dövlət suverenliyini bərpa etdi. Biz bu il Qazax rayonunun dörd kəndini geri aldıq, bir güllə atılmadan, siyasi yollarla. Amma o da həqiqətdir ki, əgər son dörd ilin Azərbaycan-Ermənistan münasibətlərində baş vermiş hadisələr baş verməsəydi, əlbəttə, Ermənistan heç vaxt öz xoşu ilə bu kəndləri bizə qaytarmazdı. Onlar məcburiyyət qarşısında bunu etdilər, bizim siyasi, hərbi gücümüzü dərk edərək buna getdilər və mən ümid edirəm ki, bundan sonra da Ermənistan öz siyasətində Cənubi Qafqazda və eyni zamanda, dünyada yaradılmış yeni reallıqları nəzərə alacaq. Cənubi Qafqazda yeni reallıqları biz yaratdıq. Vətən müharibəsi bu reallıqları yaratdı, dövlət suverenliyimizin bərpası bu reallıqları daha da gücləndirdi və biz Cənubi Qafqazda yaratdığımız yeni reallıqları diplomatik, beynəlxalq və siyasi müstəvidə təsdiqlədik. Bütün dünya yeni reallıqları qəbul edib.

Ona görə Ermənistanın genişmiqyaslı silahlanma kampaniyası hesab edirəm ki, bölgə üçün növbəti təhdid mənbəyidir. Əgər bu il bizim üçün ən narahatedici məqamı qeyd etsək, təbii ki, bu, Ermənistanın silahlanmasıdır. Bunun heç bir məntiqi izahatı yoxdur. Ermənistan öz işğalçılıq siyasətində tamamilə iflasla üz-üzə qalmışdır. 2020-ci və ondan sonra 2023-cü illərdəki hərbi məğlubiyyətləri onlara düz yol göstərməli idi. Biz də buna çalışırdıq və bu gün də öz səylərimizi davam etdiririk. Mən dəfələrlə həm rəsmi bəyanatlarımda, həm Ermənistan tərəfi ilə apardığımız danışıqlar əsnasında onlara xəbərdarlıq etmişəm ki, bu təhlükəli yoldan çəkinsinlər. Onları təhrik edən və bu gün yenə də Azərbaycan üzərinə hücum etməyə vadar edən xarici dairələr, xarici ölkələr onların arxasında durmayacaq, sadəcə olaraq, dura bilməyəcək. Bizimlə bu bölgədə hərbi müstəvidə heç bir qüvvə rəqabət apara bilməz. Ona görə bir daha deyirəm, hələ ki, gec deyil, bu təhlükəli yoldan geri qayıtsınlar. Cənubi Qafqaz sülh, əmin-amanlıq, əməkdaşlıq bölgəsi olmalıdır. Ermənistanın genişmiqyaslı və sürətli silahlanması, öldürücü silahların tədarükü bu sülhü, mümkün olan sülhü poza bilər. Bir şeyi də qeyd etməliyəm, Azərbaycan, sadəcə olaraq, bu məsələ ilə bağlı tamaşaçı rolunda olmayacaq. Otuzillik işğal, dağıntılar, Qarabağın, Şərqi Zəngəzurun viran qoyulması, Xocalı soyqırımı, bir milyon insanımızın Ermənistanın ucbatından qaçqın, köçkün vəziyyətində yaşaması bizim xatirimizdən heç vaxt silinməyəcək. Biz bunu heç vaxt unutmayacağıq. Ermənistanın işğalçılıq siyasəti və mahiyyəti daim nəzərə alınmalıdır. Ona görə bir daha özümə borc bilib Ermənistan rəhbərliyinə növbəti xəbərdarlıq edirəm ki, bu təhlükəli yoldan çəkinsinlər. Bir də ki, bizimlə hərbi və istənilən sahədə rəqabət aparmaq onların iqtidarında deyil.

Ermənistanın kütləvi surətdə silahlanmasını nəzərə alaraq, biz gələn ilin hərbi büdcəmizi əhəmiyyətli dərəcədə artırmışıq. Bu, rekord həddə çatıb – 8,4 milyard manat səviyyəsinə qalxıb. Yenə də deyirəm, biz məcbur qalıb bunu bu səviyyəyə qaldırmışıq. Çünki Cənubi Qafqazda Ermənistanın başlatdığı silahlanma yarışında biz geridə qala bilmərik. Ancaq əgər bu silahlanma yarışı olmasaydı, həmin bu pulun ən azı, ən azı yarısı digər sahələrə istiqamətləndiriləcəkdi - Qarabağın, Şərqi Zəngəzurun bərpa edilməsinə, vətəndaşlarımızın sosial problemlərinin həllinə. Sadəcə olaraq, müqayisə üçün deyim. Hərbi xərclərimiz 8,4 milyard manat olacaq. Qarabağa və Şərqi Zəngəzura isə gələn il biz 4 milyard manat ayırırıq. Bunun tam əksi ola bilərdi. Sadəcə olaraq, Ermənistan və onun arxasında duran və onlara pis məsləhətlər verən ölkələr buna imkan vermir.

Bununla belə, Qarabağın və Şərqi Zəngəzurun bərpası uğurla gedir. Artıq 10 minə yaxın keçmiş məcburi köçkün bu torpaqlara qayıdıb, onlar üçün ən gözəl şərait yaradılıb. Bütövlükdə isə azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır, çalışır, işləyir - həm yeni açılmış müəssisələrdə, sosial obyektlərdə, inşaat işlərində. Gələn il təbii ki, oraya qayıdacaq vətəndaşların sayı böyük dərəcədə artacaq. Onu da bildirməliyəm ki, 2021-ci ildən bu günə qədər Qarabağın və Şərqi Zəngəzurun bərpasına Azərbaycan 19 milyard manatdan çox vəsait ayırıb və bundan sonra da Böyük Qayıdış proqramının icra edilməsi bizim üçün prioritet məsələ olacaqdır.

Əlbəttə ki, bütün bu işləri görmək üçün iqtisadiyyatımız inkişaf etməlidir. Burada da yaxşı nəticələr var. Bu il ümumi daxili məhsul 4 faizdən çox, qeyri-neft sektorunda ümumi daxili məhsul 6 faizdən çox, qeyri-neft sənaye sahəsində isə artım 7 faizdən çox olub. Biz öz valyuta ehtiyatlarımızı artırmışıq və hazırda 72 milyard dollardan çox valyuta ehtiyatlarımız var. Eyni zamanda, xarici borcumuzu da azaltmışıq və bu gün Azərbaycanın xarici borcu cəmi 5,2 milyard dollardır. Yəni, başqa sözlə desək, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. İndi əgər bu rəqəmlərə yaxın olan rəqəm hər hansı bir inkişaf etmiş ölkədə varsa, onu mənə göstərsinlər. Bütün bu işləri görməklə yanaşı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, hərbi gücümüzün artırılması, sosial layihələrin icra edilməsi ilə yanaşı, biz bax, bu önəmli makroiqtisadi rəqəmləri əldə etmişik. Həm borcumuzu azaltmışıq, həm ehtiyatlarımızı artırmışıq və bu, imkan verir ki, biz geniş sosial proqramlar icra edək. Deyə bilərəm ki, 2019-cu ildən bu yana dörd sosial paket layihəsi, proqramı icra edilmişdir. Gələn il beşinci paket icra ediləcək. Bu layihələrə ayrılan və ayrılacaq vəsait 7,5 milyard manat olacaq.

Sosial sahəyə gəldikdə, onu da bildirməliyəm ki, 2025-ci ildən başlayaraq minimum əməkhaqqı 345 manatdan 400 manata, minimum pensiya isə 280 manatdan 320 manata qaldırılacaq. Artım təxminən 14-15 faizdir. Yəni, yenə də bütün bu böyük investisiya, sərmayə qoyuluşu layihələrinin icrasına baxmayaraq, sosial sahə, insanların güzəranı, insanların sosial müdafiəsi daim diqqət mərkəzində olacaqdır.

Bu il Azərbaycanda COP29 iqlim konfransı keçirildi. Deyə bilərəm ki, bu, bizim müstəqillik tariximizdə ən böyük beynəlxalq tədbirdir və hesab edirəm ki, dünya miqyasında ən böyük və mötəbər beynəlxalq konfransdır. Cəmi on bir ay ərzində biz bu böyük tədbiri uğurla keçirdik. Qeydiyyatdan keçmiş 76 min iştirakçı öz gözləri ilə Azərbaycanın potensialını bir daha gördü. 197 ölkə, 80 dövlət və hökumət başçısı və vitse-prezident iştirak edib. Bu, bir daha göstərir ki, COP29-u Azərbaycana qarşı istifadə etmək istəyən bəzi Qərb ölkələrinin, onların nəzarətində olan dırnaqarası qeyri-hökumət təşkilatlarının və saxta media orqanlarının - onların bütün səyləri əbəs oldu on bir ay ərzində. Bu, hələ də davam edir. COP-dan sonra da artıq iki aya yaxındır davam edir, bizə qarşı şər, böhtan, yalan, iftira, uydurma kampaniyası aparılır - Azərbaycanı qaralamaq, Azərbaycanın imicinə zərbə vurmaq. Onun arxasında duran ölkələrin adlarını mən heç çəkmək də istəmirəm. Azərbaycan xalqı o ölkələri yaxşı tanıyır. Qeyri-hökumət təşkilatları hansı mənbədən vəsait alır, hansı paytaxtdan göstəriş alır, onu da Azərbaycan xalqı yaxşı bilir. Ümid edirəm ki, gələn ilin yanvarın sonlarından başlayaraq artıq Azərbaycana qarşı bu diskriminasiya və ayrı-seçkilik, şər, böhtan siyasətinə son qoyulacaq. Hər halda, ümidlər böyükdür.

Bu il Azərbaycan xalqı bir daha mənə böyük etimad göstərmişdir. Prezident seçkilərində mənə göstərilən dəstək məni daha da ruhlandırır, daha da gücləndirir. Daha da çox məni əmin edir ki, biz düzgün yolla irəliyə gedirik və bundan sonra da mən bu yüksək etimadı doğruldacağam. Hesab edirəm ki, Azərbaycan xalqında bu məsələ ilə bağlı hər hansı bir şübhə yoxdur. Azərbaycan 21 ildir inamla, uğurla, ləyaqətlə inkişaf edir. Bu illər ərzində çətinliklər də olub, sınaq məqamları da olub, müharibələr olub, bizə qarşı əsassız ittihamlar olub. Amma heç biri, heç biri bizi yolumuzdan döndərə bilmədi. Biz ərazi bütövlüyümüzü də bərpa etdik, dünya güclərinin istəklərinə rəğmən, dövlət suverenliyimizi də bərpa etdik, yenə də böyük dövlətlərin iradəsinə zidd olaraq. Ölkəmizi də inamla idarə edirik. Bizim ayağımıza dolaşmaq istəyənlər isə növbəti dəfə iflasa uğrayacaq.

Əziz həmvətənlər, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bütün dünyada yaşayan azərbaycanlıları bu bayram münasibətilə ürəkdən təbrik edirəm. Əziz xalqıma cansağlığı, firavanlıq, xoşbəxtlik, səadət arzulayıram.

**Bayramınız mübarək olsun!**

# Prezident İlham Əliyevin Pakistanın Baş naziri ilə geniş tərkibdə görüşü olub

**Fevralın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.



**Prezident İlham Əliyevin çıxışı**

-Əziz qardaşım, cənab Baş nazir, nümayəndə heyətinin hörmətli üzvləri Azərbaycana xoş gəlmisiniz.

Hazırda dövlət səfərinə gəlmiş əziz qardaşımı ölkəmizdə qəbul etməkdən çox məmnunam. Ötən il Pakistana dövlət səfərimdən, mənə və nümayəndə heyətimə göstərilmiş qonaqpərvərlikdən xoş xatirələrim var. Biz buna görə çox minnətdarıq.

Bu gün cənab Baş nazirlə görüşüm əsnasında ikitərəfli gündəliyin əsas hissəsini artıq nəzərdən keçirdik və hazırda söhbət nümayəndə heyətləri ilə davam edir.

Əminəm ki, səfər ölkələrimiz arasında qardaşlıq əlaqələrini gücləndirəcək. Biz beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Bu gün çox geniş iqtisadi gündəliyi razılaşdırdıq və iqtisadi əməkdaşlığımıza, eləcə də sərmayə imkanlarına aid praktiki layihələri müzakirə etdik. Azərbaycanın Pakistana sərmayələri ilə bağlı imzalanacaq sənədlərin bir ay ərzində hazırlanması məqsədilə artıq öz heyətlərimizə fəal çalışmaq təlimatlarını verdik. Mənim Pakistana dövlət səfərim zamanı rəsmən bəyan etdim ki, Azərbaycan Pakistanda müxtəlif layihələrə minimum 2 milyard dollar sərmayə yatırmağa hazırdır.

Biz təxminən bu yaxınlarda həmin layihələrin siyahısını artıq almışıq və heyətlərimiz onları dəyərləndirir. Beləliklə, hər bir məsələni yekunlaşdırmaq və bizə hesabat vermək üçün qardaşımla birgə bir ay müddət veririk. Münasibətlərimiz nəinki xalqlarımız, o cümlədən təmsil etdiyimiz regionlar üçün həqiqətən vacibdir. Pakistan ilə Azərbaycan arasında bu cür qardaşlıq münasibətlərini görmək iki qardaş müsəlman ölkəsi arasında tərəfdaşlığın yaxşı nümunəsidir. Biz beynəlxalq təsisatlarda hər zaman bir-birimizi dəstəkləyirik, ölkələrimizin ərazi bütövlüyünə, suverenliyinə güclü dəstək veririk və qeyd etdiyim kimi, qarşımızda çox geniş sərmayə gündəliyi dayanır. Əminəm ki, bu gün əhatə edəcəyimiz bütün məsələlər, eləcə də bir çox digər sahələr üzrə işimiz Biznes Forumunda davam edəcək və aramızda daha sıx tərəfdaşlıq olacaq. Biz iqtisadi tərəfdaşlığımızı siyasi sahədəki səviyyəyə çatdırmalıyıq və bu, qarşılıqlı siyasi iradənin aydın təzahürünə çevriləcək.

Əziz qardaşım, bir daha xoş gəlmisiniz və Sizə Bakıda xoş səfər arzu edirəm.

***

Sonra Pakistanın Baş naziri çıxış etdi.

**Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı**

qardaşım, Prezident İlham Əliyev, təşəkkür edirəm. Administrasiyanızın hörmətli üzvlərinə və nümayəndə heyətimin üzvlərinə minnətdaram. Məni çox səmimiyyətlə dəvət etdiyinizə görə Sizə çox sağ olun deyirəm.

Burada - hər zaman yaşıl və gözəl Bakı şəhərindəyik. Lakin bu gün şəhər qar örtüyünə bürünüb və hətta daha gözəl görünür. Bu gözəllik mənə çox nəzakətli töhfənizi – İslamabadda yaşıllıq ekspertlərindən ibarət heyətinizi xatırladır. Onlar İslamabadın abadlaşdırılmasında əla iş görüblər və Əlhəmdüllah, şəhərimiz də gözəldir. Bununla belə, heyətinizin yanaşması çox əladır və bu jestə görə Sizə təşəkkürümü bildirirəm.

Zati-aliləri, Sizin Pakistana son səfəriniz ikitərəfli əlaqələrimizi çox böyük dərəcədə gücləndirdi. Pakistan xalqı səfəriniz zamanı çox sevindi və məmnun oldu. Düşünürəm ki, Azərbaycan və Pakistan xalqlarının ürəyi bir döyünür. Mən bunu tam səmimi-qəlbdən söyləyirəm. Siz hər zaman Pakistanın böyük dostu olmusunuz. Siz Pakistan xalqını sevirsiniz.

Eyni zamanda, Pakistanın bütün hökumətlərini, ölkəmizin bütün siyasi partiyalarını ortaq məqsəd birləşdirir: bu, bizim Azərbaycanla, Sizinlə və Azərbaycan xalqı ilə olan dostluğumuz və qardaşlığımızdır. Mən çox istərdim ki, sabah Şuşaya səfər edim, lakin, bildiyiniz kimi, kəskin hava şəraiti var. Mən bu ilin iyulunda keçiriləcək konfransa gələn zaman həmin yerlərə məmnunluqla səfər edərdim. O vaxt biz həmin əsrarəngiz məkanları görə bilərik.

Zati-aliləri, bu səhər keçirilmiş təkbətək görüşümüzdə bizim çox yaxşı və məhsuldar müzakirəmiz oldu.

# Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze yanvarın 17-də mətbuata bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

-Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Baş nazir, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Şadam ki, bizim görüşlərimiz müntəzəm xarakter alır. Biz Sizinlə iki ay bundan əvvəl Bakıda görüşmüşdük. COP29 konfransında iştirak etdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Ondan əvvəl isə 10 ay bundan qabaq Siz Azərbaycana səfər etmisiniz. Yəni, son 10 ay ərzində bu, Sizin Azərbaycana üçüncü səfərinizdir və bu fakt özlüyündə Gürcüstan-Azərbaycan əlaqələrinin nə qədər dərin və mənalı olduğunu göstərir.

Bu səfərin xüsusi əhəmiyyəti var. Çünki Gürcüstanda keçirilmiş parlament seçkilərindən sonra bu, Sizin ilk xarici səfərinizdir. Fürsətdən istifadə edərək, təmsil etdiyiniz "Gürcü Arzusu" Partiyasının seçkilərdəki qələbəsi münasibətilə Sizi bir daha səmimiyyətlə təbrik edirəm və Sizə, bütün komandanıza yeni uğurlar arzulayıram. Parlament seçkilərindən sonra ilk səfərinizi Azərbaycana həyata keçirməyiniz, təbii ki, Gürcüstan-Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Bu qərara görə Sizə xüsusilə təşəkkürümü bildirmək istəyirəm.

Bizim xalqlarımız əsrlər boyu dostluq, mehriban qonşuluq, qardaşlıq şəraitində yaşamışlar. Bu ənənələr bu gün də yaşayır. Bu gün Gürcüstan-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər. İqtisadi sahədə yaxşı nəticələr var. Azərbaycan Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyub. Əlbəttə, bu onu göstərir ki, hökumətinizin uğurlu iqtisadi siyasəti, sərmayələrin cəlb edilməsi, Gürcüstanda olan çox müsbət sərmayə iqlimi bütün investorları həvəsləndirir. O cümlədən Azərbaycan investorları da böyük həvəslə Gürcüstana öz sərmayələrini qoyurlar.

Təbii ki, energetika sahəsindəki iki ölkə arasındakı əməkdaşlıq həm ölkələrimiz üçün, həm daha böyük, geniş coğrafiya üçün xüsusi əhəmiyyət daşıyır. Birgə həyata keçirdiyimiz neftqaz layihələri bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin əsasını təşkil edir. Təkcə onu demək kifayətdir ki, Gürcüstan tranziti vasitəsilə Azərbaycan hazırda 11 ölkəyə öz təbii qazını ixrac edir, ildən-ilə ixrac artır. Keçən il bu, 25 milyard kubmetrə çatmışdır və bunun 10 faizi - ümumi ixracımızın 10 faizi Gürcüstanın payına düşür. Mənə verilən məlumata görə, Gürcüstanın istehlak etdiyi təbii qazın 80 faizdən çoxu Azərbaycan mənşəlidir. Yəni, bu, doğrudan da çox böyük, xüsusi əhəmiyyətə malik olan layihədir və getdikcə bizim qaz ixrac coğrafiyamız genişlənəcək. Bizim yeni qaz yataqlarımız bu il işə düşəcək. Gələn il, ondan sonrakı illər üçün də yeni kəşf edilmiş yataqlar mövcuddur. Ona görə getdikcə təbii qazın ixracı artmalıdır və artacaqdır.

Bununla paralel olaraq, biz sizinlə birlikdə yaşıl enerji layihələrini də həyata keçiririk. Bu da hökumətlərimizin məsuliyyətini bir daha göstərir. Çünki bu gün bu enerji də bazarda böyük maraq doğurur, buna böyük tələbat var. Bu gün mənə verilən məlumata görə, yaşıl enerji layihəsi də uğurla icra edilir. Hesab edirəm ki, bütün digər layihələr kimi, bu layihənin də uğurla başa çatması şansı böyükdür.

Bu gün, eyni zamanda, Sizinlə təkbətək söhbət əsnasında bağlantıları və Orta Dəhliz layihəsini müzakirə etdik. Bizim ölkələrimiz burada da yaxın tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Bizim müvafiq qurumlarımızın koordinasiya şəklindəki fəaliyyəti bu layihəni də əminəm ki, uğurla başa çatdıracaq. Burada, əlbəttə ki, biz bir çox qonşularla təmasda olmalıyıq və bu təmaslar var. Bu da böyük coğrafiyanı əhatə edən layihədir və yenə də Gürcüstanla Azərbaycan burada Avropa ilə Asiya arasındakı körpü rolunu uğurla oynayır.



Bilirəm ki, Gürcüstanda nəqliyyat infrastrukturunun genişləndirilməsi layihəsi icra edilir. Azərbaycanda da bu layihələr icra olunur, o cümlədən nəqliyyat infrastrukturunun rəqəmsallaşdırılması layihəsi. Yəni, biz bu işləri paralel apararaq təbii ki, həm ölkələrimiz və xalqlarımız, həm də qonşularımız üçün çox əvəzolunmaz xidmətlər göstəririk.

Bütün digər sahələrdə də ancaq uğurlarımıza sevinmək olar. Vaxt məhdudluğunu nəzərə alaraq digər məsələləri biz geniş formatda bu gün müzakirə edəcəyik. Bir şeyi də deyə bilərəm ki, Sizin partiyanızın qələbəsi bütövlükdə Cənubi Qafqazın bundan sonra sabit region olması üçün xüsusi əhəmiyyət daşıyır və biz bu qələbəyə Sizin dostunuz, qardaşınız kimi sevinirik. Sizin hökumətinizə fəaliyyətində yeni uğurlar arzulayıram. Bir daha xoş gəlmisiniz.

***

Sonra Gürcüstanın Baş naziri İrakli Kobaxidze bəyanatla çıxış etdi.

**Baş nazir İrakli Kobaxidzenin bəyanatı**

-Cənab Prezident, təşəkkür edirəm. Çox səmimi qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Eyni zamanda, bizim partiyamızın qələbəsi ilə bağlı təbriklərə görə də təşəkkür edirəm. Bu, bizim bölgəmizdə sabitliyin və təhlükəsizliyin təmin edilməsi, ölkələrimizin münasibətləri baxımından əhəmiyyətlidir. Bu, müstəsna əhəmiyyətə malikdir. Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz. Siz ölkənizə dövlətinizin mənafelərini qorumaqla rəhbərlik edirsiniz. Bu gün burada olmaq məndə böyük şərəf və məmnunluq doğurur.

Bildiyiniz kimi, bu gün iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 10-cu iclası keçirildi. İclas olduqca səmərəli oldu və mən azərbaycanlı həmkarlarıma iclasın yüksək səviyyədə keçirilməsinə görə təşəkkür edirəm. Onu da deyə bilərəm ki, biz əməkdaşlığımızı daha da irəli apara bilərik. Bizim dostluğumuzun, qardaşlığımızın tarixi ənənələri var və bu qardaşlıq məhz bu strateji tərəfdaşlığın təməli üzərinə dayanır.

Mən əminəm ki, bu tərəfdaşlıq gələcəkdə də eyni ruhda inkişaf edəcəkdir. Vacib məqam odur ki, biz hər birimizin strateji və milli maraqlarına hörmətlə yanaşırıq. Biz ölkələrimizin ərazi bütövlüyünü və suverenliyini qəti şəkildə dəstəkləyirik. Cənab Prezident, bu dəstəyə görə şəxsən Sizə və Azərbaycana təşəkkür edirəm.

Bizim təkbətək görüşümüzdə ikitərəfli münasibətlərimizin maraqlı müzakirəsi oldu. Biz regionda cərəyan edən prosesləri və qlobal hadisələri müzakirə etdik. Əlbəttə, bütün bu proseslərin bizim ölkələrə təsiri var, bu, bizim siyasi mövqeyimizə də təsir edir. Vacib məqam ondan ibarətdir ki, biz hər bir çağırışla bağlı birlikdə çalışmalıyıq. Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizlik müstəsna əhəmiyyətə malikdir. Bir daha Sizi əmin etmək istəyirəm ki, biz bu sabitliyi təmin etmək üçün maksimum səy göstərməyə hazırıq.

Eyni zamanda, bizim münasibətlərin iqtisadi aspekti də çox vacibdir. Siz artıq müdrik şəkildə bizim ölkələrin strateji tərəfdaşlığını qeyd etdiniz. Bu layihələrin strateji və iqtisadi əhəmiyyəti var. Çox vacibdir ki, belə layihələr davamlı olsun və yeni layihələr müəyyən edilsin. Artıq qeyd etdiyim kimi, Azərbaycan Respublikası bizim üçün təkcə dəyərli dost deyil, Azərbaycan bizim üçün etibarlı tərəfdaş və qardaş ölkədir. Bu bağların dərinləşdirilməsi bizim marağımızdadır və biz bu münasibətlərə böyük əhəmiyyət veririk.

Cənab Prezident, Siz bağlantı layihələrini qeyd etdiniz. Bu, mühüm bir sahədir və bizim ikitərəfli əlaqələrimizin inkişafı baxımından da bu mövzu vacib əhəmiyyət kəsb edir. Bu coğrafi genişlənmədə ölkələrimiz əhəmiyyətli rol oynaya bilər. Biz Asiyanı Avropa ilə birləşdiririk və bu potensialdan maksimal dərəcədə istifadə etməliyik. Odur ki, bu layihələr bizim birgə fəaliyyətimiz nəticəsində mümkün olmuşdur. Hazırda üzərində işlədiyimiz növbəti layihələr var ki, onlar da bizim ölkələrin mənafeyi naminə bu potensialı genişləndirəcək. Bu tərəfdaşlığımızın irəlilədilməsi üçün əlavə səylər göstərməyə hazırıq.

İqtisadi-ticari sahə də çox vacibdir və biz çox məmnunuq ki, Azərbaycan Gürcüstanın beş əsas ticarət tərəfdaşı sırasındadır. Bizim tərəfdaşlığımız daha da dərinləşdirilməlidir. Biz hökumətlərarası komissiyanın iclasında da bunu müzakirə etdik. Bir daha qeyd etmək istəyirəm ki, bizim güclü təməllər üzərində qurulmuş əməkdaşlığımız, tarixi münasibətlərimiz və qardaşlığımız var. Xalqlarımız qarşısında da bunu bəyan etmək istəyirəm ki, biz siyasi tərəfdaşlığımızı dərinləşdirmək əzmindəyik və Gürcüstan tərəfi bunun üçün səylərini əsirgəməyəcək.

Mən mühüm dəstəyə və tərəfdaşlığa görə azərbaycanlı dostlara və həmkarlara, şəxsən cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm. Biz cənab İlham Əliyevin cari ildə Gürcüstana səfərini gözləyirik və ümid edirəm ki, bu il biz həmin şərəfə nail olacağıq.

**Təşəkkür edirəm.**

# Fövqəladə hallar naziri Kəmaləddin Heydərov Xızıda vətəndağları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın bölgələrində vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fövqəladə hallar naziri Kəmaləddin Heydərov yanvarın 17-də Xızı şəhərində vətəndaşları qəbul edib. Xızı rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasında keçirilən qəbulda Xızı və Siyəzən rayonlarının sakinləri iştirak ediblər.

Əvvəlcə, fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad ediblər.







Daha sonra fövqəladə hallar naziri Kəmaləddin Heydərov Xızı və Siyəzən rayonlarının sakinlərini qəbul edib. Qəbulda sakinlər tərəfindən edilən müraciətlərin əksəriyyəti yerindəcə öz həllini tapıb. Bəzi məsələlərlə əlaqədar qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Qeyd edək ki, fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, Nazirliyin müvafiq struktur bölmə və qurumlarının rəhbərləri də vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən Xızı və Siyəzən rayonunun sakinləri müraciətlərinə yerində operativ yanaşılması üçün yaradılan şəraitə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz səmimi minnətdarlıqlarını bildiriblər.

*"XIZI"*
*17 yanvar 2025-ci il*

# Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Xızıda sakinlərlə görüşüb

**Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev yanvarın 24-də Xızı şəhərində Xızı və Siyəzən rayonlarının sakinləri ilə görüşüb.**



Görüşdən əvvəl Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov Ümummilli lider Heydər Əliyevin Xızı şəhərində ucaldılmış abidəsini ziyarət edərək, önünə tər gül dəstəsi qoyublar və əziz xatirəsini böyük ehtiramla yad ediblər.



Qəbul zamanı vətəndaşların əsasən torpaq və digər daşınmaz əmlak üzərində hüquq, yaşayış və qeyri-yaşayış təyinatlı obyektlərin layihələndirilməsi və tikintisinə icazə icraatı ilə bağlı sualları cavablandırılıb. Eyni zamanda şəhərsalma qanunvericiliyinin tələbləri və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən yaradılmış #Elektronİcazə (e-tikinti) sisteminin üstünlükləri və imkanları barədə vətəndaşlar ətraflı şəkildə məlumatlandırılıblar.

*"XIZI",*
*24 yanvar 2025-ci il*

# İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Xızıda vətəndaşları qəbul edib



**İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov yanvarın 30-da Xızı şəhərində Xızı və Abşeron rayonlarından olan vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov və Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoyublar və dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Daha sonra iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində Xızı və Abşeron rayonlarından olan vətəndaşları qəbul edib.

Görüşə gələn vətəndaşlar əmlak, vergi, sahibkarlığın inkişafı, güzəştli kredit, işlə təminolunma və s. məsələlərlə bağlı müraciət ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri dinlənilib, sorğu xarakterli müracətlərlə bağlı əsaslandırılmış cavab və izahatlar verilib.

Araşdırma tələb edən müraciətlər qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün aidiyyəti strukturlara yönləndirilib.

*"XIZI",*
*30 yanvar 2025-ci il*

# 20 Yanvar hadisələrindən 35 il ötür

**Qan yaddaşımıza əbədi həkk olunmuş 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycan tarixinin özündə faciə və qəhrəmanlığı ehtiva edən unikal səhifəsi, doğma Vətənimizin sonrakı taleyinə əhəmiyyətli təsiri olan dönüş anıdır.**

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə o vaxtlar SSRİ-yə rəhbərlik edən Mixail Qorbaçovun göstərişi ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi surətdə amansızlıqla qətlə yetirilmişdir. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Ümumilikdə 137 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

20 Yanvar hadisələri xalqımızın milli varlığına, milli azadlıq ruhuna qarşı yönəldilmiş təcavüz, terror aktı idi. Lakin düşmənlərimiz qürurumuzu sındıra, iradəmizi qıra, müstəqillik amallarımızı parçalaya bilmədilər.

O müdhiş gecədə SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliklər, tökülmüş nahaq qanlar, insanların qətlə yetirilməsi xalq kütlələrinin nəinki mübarizə əzmini qıra bilmədi, əksinə onları birləşdirərək, mübarizliyini daha da artırdı.

20 Yanvar hadisələrinin Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həm rəmzi mənası, həm də fenomenal rolu oldu. 20 Yanvar faciəsinin yaratdığı ictimai-siyasi reallıq süqutu yaxınlaşan SSRİ-də və soyuq müharibənin bitməsi ərəfəsində beynəlxalq arenada formalaşan geosiyasi situasiya fonunda əvvəlcə Azərbaycan SSR-də, sonra müstəqil Azərbaycanda zəncirvarı tarixi proseslərə təkan verdi.

20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

20 Yanvar faciəsi hər il Azərbaycanda Ümumxalq Hüzn Günü kimi qeyd olunur.

*"XIZI"*

# Azərbaycan xalqına qarşı törədilmiş qanlı cinayətin - 20 Yanvar hadisələrinin qurbanları Xızıda böyük ehtiramla yad edilib








**Xalqın qan yaddaşına qəhrəmanlıq səhifəsi kimi həkk olunmuş 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Xızıda silsilə tədbirlər həyata keçirilib.**

Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, rayonda fəaliyyət göstərən idarə, təşkilat, müəssisələrin rəhbərləri və əməkdaşları, şəhid ailələri, müharibə veteranları, ziyalılar, ağsaqqallar, gənclər yanvarın 20-də Xızı şəhərindəki "Şəhidlər Xiyabanı" xatirə-abidə kompleksini ziyarət ediblər. Abidə kompleksinin önünə tər gül-çiçək dəstələri düzən ziyarətçilər 20 Yanvar faciəsi qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad edərək, şəhidlərin ruhuna dualar oxuyublar.

***

20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar yanvarın 20-də Xızı rayonu ərazisində saat 12.00-da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hüzn əlaməti olaraq Azərbaycanın dövlət bayraqları endirilib.

***

Xızı Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş Xızı rayonu üzrə 20 Yanvar faciəsinin otuz beşinci ildönümü ilə bağlı Tədbirlər planına uyğun olaraq, Xızı rayonunun bütün idarə, təşkilat və müəssisələrində, şəhər, kənd və qəsəbələrdə Xızı Rayon İcra Hakimiyyəti rəsmilərinin, tədbirlərə məsul şəxslərin iştirakı ilə anım mərasimləri, konfrans və toplantılar təşkil edilib.

Mədəniyyət müəssisələrində 20 Yanvar hadisələri ilə bağlı tamaşalar göstərilib, sənədli filmlər nümayiş etdirilib.

Ümumtəhsil müəssisələrində 20 Yanvar faciəsi ilə əlaqədar xüsusi dərslər keçirilib.

*"XIZI", R.M.*
*Yanvar 2025-cü il*

# "20 Yanvar - milli iradəmizin zəfər çaldığı gün"

**"20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir."**





Bu fikirlər, Xızı rayonunda keçirilmiş "20 Yanvar - milli iradəmizin zəfər çaldığı gün" adlı tədbirdə səslənib.

Xızı Rayon İcra Hakimiyyətinin və Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə yanvarın 17-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilmiş tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayıb.

Daha sonra tədbir iştirakçıları 20 Yanvar şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov tədbirdə çıxış edərək 20 Yanvar hadisələrinin Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həm rəmzi mənası, həm də fenomenal rolu olduğunu, faciənin yaratdığı ictimai-siyasi reallığın süqutu yaxınlaşan SSRİ-də və soyuq müharibənin bitməsi ərəfəsində beynəlxalq arenada formalaşan geosiyasi situasiya fonunda, əvvəlcə Azərbaycan SSR-də, sonra müstəqil Azərbaycanda zəncirvarı tarixi proseslərə təkan verdiyini diqqətə çatdırıb.

Azərbaycan xalqının başına gətirilən qanlı faciəyə - 20 Yanvar hadisələrinə ilk siyasi-hüquqi qiymətin təhlükələrdən çəkinməyərək Sovet rəhbərliyinin xalqımıza qarşı yönəlmiş bəd əməlinə etiraz edən Ümummilli Lider Heydər Əliyev tərəfindən verildiyini vurğulayan A.Hüseynov bildirib ki, 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarından qorxmayaraq, həyatını təhlükə qarşısına ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ulu Öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi, ifşaedici və cəsarətli bir bəyanatla çıxış etdi.

Sonrakı çıxışlarda 1990-cı ildə yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun xüsusi təyinatlı hərbi hissələri tərəfindən müstəqil dövlət yaratmaq arzusunda olan dinc əhaliyə qarşı Bakı şəhərində törədilmiş misli görünməmiş qətliamın, bəşəriyyətə, bütövlükdə insanlığa qarşı həyata keçirilmiş bu dəhşətli terror aktının təfərrüatları və ağır nəticələrindən, bugünkü və gələcək nəsillər üçün örnək olan şəhidlərimizin qəhrəmanlıqlarından bəhs edilib.

Vurğulanıb ki, 20 Yanvar hadisələrindən sonra Azərbaycandakı xalq hərəkatı milli azadlıq hərəkatına çevrildi. 20 Yanvar ölkəmizin müstəqillik salnaməsidir və bizim üçün and yeri yaradıb. Bu and yerindən nümunə götürən xalqımız hər zaman Vətən uğrunda şəhadətə hazırdır. 44 günlük Vətən müharibəsində də igid oğullarımız bu şəhidlik məktəbindən nümunə götürərək torpaqlarımızı erməni işğalından azad etdilər.

Sonda 20 Yanvar hadisələrini əks etdirən sənədli filmin nümayişi tədbir iştirakçıları tərəfindən böyük maraqla izlənilib.

*"XIZI", R.M.*
*17 yanvar 2025-ci il*

# Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb



**"Xalqımızın qəhrəman igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür".**

**Heydər Əliyev,**
**Ümummilli Lider**

**1992-cil fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq, keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş divan tutdu. Xocalı soyqırımı azğınlaşmış ermənilərin uzun illərdən bəri azərbaycanlılara qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi.**

Quduzlaşmış erməni hərbi dəstələrinin vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək erməni qəddarlığına, zorakılığına məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyil. Xocalıda qətlə yetirilmiş 613 nəfərdən 106-sı qadın, 63-ü uşaq, 70-i isə qoca idi. Bu faciədə 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir.



Xocalı soyqırımında 56 nəfər xüsusi amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır.



Xocalı soyqırımından 33 il ötür. İllər ötdükcə, bu dəhşətli hadisə xalqımızın qan yaddaşına əbədi həkk olunub. Azərbaycan xalqı hər il fevralın 26-da Xocalı soyqırımı qurbanlarını böyük kədər hissi ilə anır.

Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar Xızı rayonunda silsilə tədbirlər keçirilib. Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, eləcə də rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərləri və əməkdaşları, şəhid ailələri, qazilər, şəhər sakinləri Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar fevralın 26-da Xızı şəhərindəki "Şəhidlər xiyabanı" abidə kompleksini ziyarət edərək önünə tər gül dəstələri düzmüşlər. Xocalı faciəsi qurbanlarının xatirəsi dərin hüzn və ehtiramla yad edilmişdir.

***

Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar fevralın 26-da Xızı rayonu ərazisində dövlət bayraqları endirilmiş, faciə qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

*"XIZI", R.M.*
*26 fevral 2025-ci il*

# Xocalı soyqırımı qan yaddaşımızdan silinməyəcək

**"XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər arasında xüsusi yer tutur."**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

**XX əsrin ən dəhşətli və qanlı faciələrindən biri olan Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Xızı rayonunda "Xocalı soyqırımı - qan yaddaşımızdır" mövzusunda tədbir keçirilib.**

Fevralın 25-də Xızı Rayon İcra Hakimiyyətinin, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı rayon sektorunun birgə təşkilatçılığı ilə Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilmiş tədbirə rayon rəsmiləri, mədəniyyət işçiləri, gənclər və şəhid R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin müəllim və şagird kollektivləri qoşulublar.



Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Xocalı faciəsi qurbanlarının, Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz və işıqlı xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov çıxış edərək ermənilər tərəfindən bu soyqırımın törədilməsində məqsədin bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan



strateji əhəmiyyətli maneəni aradan qaldırmaq, digər tərəfdən, ümumiyyətlə, Xocalını yer üzündən birdəfəlik silmək olduğunu vurğulayıb. Natiq bu faciənin Ermənistanın əzəli Azərbaycan torpaqları olan Dağlıq Qarabağı özünə birləşdirərək "Böyük Ermənistan" dövləti yaratmaq xülyasını reallaşdırmaq uğrunda apardığı vəhşiliklərlə dolu qanlı mübarizənin dəhşətli nəticələrindən biri olduğunu diqqətə çatdırıb.

Sonrakı mövzuətrafı çıxışlarda xalqımıza qarşı həyata keçirilmiş analoqu olmayan qəddar və qeyri-insani vəhşilik aktı, bu soyqırımın dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılmış addımlar və hal-hazırda işğaldan azad edilmiş ərazilərimizdə, o cümlədən Xocalıda görülən yenidənqurma işləri və "Böyük Qayıdış" haqqında geniş məlumatlı fikirlər səslənmişdir.

Sonda məktəblilərin ifasında ədəbi-bədii kompozisiyalar nümayiş olunub.

*"XIZI", R.M.*
*25 fevral 2025-ci il*

# Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov sakinləri qəbul edib











Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov təsdiq olunmuş qrafiklərə əsasən, 2025-ci ilin yanvar və fevral aylarında rayonun şəhər, qəsəbə və kəndlərində sakinlərlə səyyar görüş-qəbullar keçirib. Belə ki, yanvarın 8-də Altıağac qəsəbəsində, yanvarın 10-da Xələnc kəndində, yanvarın 15-də Məşədi Həsən kəndində, yanvarın 17-də Tıxlı kəndində, o cümlədən fevralın 5-də Giləzi qəsəbəsində, fevralın 7-də Sitalçay kəndində, fevralın 12-də Şorabad qəsəbəsində və fevralın 19-da Xızı şəhərində sakinləri qəbul edib. Qəbullarda rayon rəhbəri ilə yanaşı Xızı RİHBA-nın və aidiyyəti qurumların rəsmiləri də iştirak ediblər.

Yerlərdə müraciətlər, təklif və şikayətlər dinlənildikdən sonra vətəndaşları narahat edən problemlərin həlli istiqamətində Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov müvafiq qurumların rəhbərlərinə tapşırıqlar verib.

*"XIZI"*

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2025-ci ilin mart ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| | | | | |
|---|---|---|---|---|
| 1 | Baxşılı kəndi | Baxşılı kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 05.03.2025 | 11:00 |
| 2 | Türkoba kəndi | Türkoba kənd tibb məntəqəsi | 07.03.2025 | 11:00 |
| 3 | Yeni Yaşma kəndi | Yeni Yaşma kənd tam orta məktəbin binası | 12.03.2025 | 11:00 |
| 4 | Fındığan kəndi | Fındığan kənd İƏD üzrə nümayəndəliyin inzibati binası | 14.03.2025 | 11:00 |

# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2025-ci ilin aprel ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| | | | | |
|---|---|---|---|---|
| 1 | Qarabulaq kəndi | İƏD üzrə nümayəndəliyin inzibati binası | 23.04.2025 | 11:00 |
| 2 | Altıağac qəsəbəsi | Altıağac qəsəbə tam orta məktəbin binası | 25.04.2025 | 11:00 |
| 3 | Məşədi Həsən kəndi | Keçmiş Məşədi Həsən bələdiyyəsinin binası | 28.04.2025 | 11:00 |
| 4 | Tıxlı kəndi | Tıxlı kənd ümumi orta məktəbin binas | 30.04.2025 | 11:0 |

# Xocalı həqiqətlərini dünyaya çatdırmaq hamımızın borcudur

***"Xocalıya ədalət" kampaniyası bütün dünyada insanları müharibəyə, ədalətsizliyə qarşı çıxmağa səsləyir. Birgə belə təşəbbüslər irəli sürməklə dünyamızı daha ədalətli və sülh şəraitində yaşada bilərik".***
***Leyla Əliyeva,***
***Heydər Əliyev Fondunun vitse-prezidenti***





"Uzun illər boyu Xocalı soyqırımının dünya ictimaiyyətinə baş verdiyi kimi tanıdılması ədalət tərəfdarı olan insanların əsas məqsədinə, hətta həyat amalına çevrildi. Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması, vəhşi ermənilər tərəfindən törədilən bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınması üçün məqsədyönlü surətdə çalışmaq lazım gəlirdi. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyası da bu məqsədlə fəaliyyətə başladı. Qısa zaman kəsiyində böyük nəticələr əldə edildi." - Bu fikirlər fevralın 26-da Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Xızı Rayon İcra Hakimiyyətinin, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı rayon sektorunun dəstəyi ilə Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında "Xocalıya ədalət" mövzusunda təşkil olunmuş tədbirdə səslənmişdir.

Xızı RİHBA-nın rəsmilərinin, mədəniyyət və təhsil işçilərinin, gənclərin, məktəblilərin qatıldığı tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Xocalı soyqırımı qurbanlarına ehtiram əlaməti olaraq, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbir çıxışlarla davam etdirilib. Natiqlər öz çıxışlarında Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, bu qətliamın bütün dünya birliyi tərəfindən soyqırımı kimi tanıdılması istiqamətində məqsədyönlü və ardıcıl işlər aparıldığını, artıq bu faciənin soyqırımı olması faktının dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərar və qətnamələrində öz əksini tapdığını diqqətə çatdırdılar.

Çıxış edənlər Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun erməni daşnakların işğalçılıq siyasətinə son qoyduğunu, düşmənləri doğma torpaqlarımızdan qovduğunu, Xocalı soyqırımı qurbanlarının, həmçinin Vətənimizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin qisasının alındığını, üçrəngli bayrağımızın Xocalıda dalğalandığını vurğulayıblar.

Daha sonra şəhid R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin şagirdləri tərəfindən hazırlanmış ədəbi-bədii kompozisiyalar nümayiş olunub.

***"XIZI", R.M.***
***26 fevral 2025-ci il***

# "Suverenliyin qorunmasında dini, mənəvi həmrəyliyin rolu" mövzusunda tədbir keçirilib






Azərbaycan xalqı müxtəlif dini və etnik qruplardan təşkil olunsa da, onları birləşdirən müqəddəs dəyərlər var. Bu dəyərlərin içərisində ən önəmlisi ortaq Vətən və əsrlər boyu formalaşmış , qarşılıqlı hörmət və etimada əsaslanan mənəvi dəyərlərdir. Məhz bu mənəvi dəyərlər bizim müqəddəs Vətənimiz və əbədi dövlətçiliyimiz naminə birliyimizi, həmrəyliyimizi möhkəmləndirir və gələcəyə gedən yolumuzu işıqlandırır. Uzun illər aparılmış məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi 44 günlük Vətən müharibəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək tarixi zəfərə nail oldu. Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, qələbəyə inamlı çağırışı xalqımızda zəfər ruhunu yüksəltdi. Dinindən, etnik mənsubiyyətindən, siyasi görüşlərindən asılı olmayaraq bütün vətəndaşlarımız güc və enerjisini qələbəyə kökləldi. 44 günlük müharibə bir daha göstərdi ki, ölkə vətəndaşları Vətən naminə dinindən, məzhəbindən, inancından asılı olmayaraq, bir yumruq kimi birləşə bilir.

Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, fevralın 12-də Xızı Rayon İcra Hakimiyyətinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Abşeron-Xızı Regional Bölməsinin, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Şimal Regional Mərkəzinin və YAP Xızı rayon təşkilatının birgə təşkilatçılığı ilə "Suverenliyin qorunmasında dini, mənəvi həmrəyliyin rolu" mövzusunda tədbir keçirilib.

Şəhid R.İsmayılov adına Xızı şəhər tam orta məktəbinin akt zalında təşkil olunmuş tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Abşeron-Xızı Regional Bölməsinin müdiri Yalçın Abdullayev, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Şimal Regional Mərkəzinin rəhbəri Bəhruz Əfəndiyev, YAP Xızı rayon təşkilatının sədr müavini Ümman Rüstəmli, müəllim və şagird kollektivləri iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov çıxış edərək, insanları birləşdirən, cəmiyyətin möhkəmliyini artıran və birgə fəaliyyətə təşviq edən amillərdən olan dini və mənəvi dəyərlərin bir ölkənin daxili və xarici təhlükəsizliyinin təmin olunmasında, vətəndaşların birliyinin gücləndirilməsində və ümumi milli məqsədlərə çatmaqda mühüm faktor olduğunu diqqətə çatdırıb. O vurğulayıb ki, dini və mənəvi həmrəylik suverenliyin qorunmasında yalnız daxili birliyin gücləndirilməsinə deyil, həm də xalqın xarici təsirlərə qarşı daha güclü müqavimət göstərməsinə, cəmiyyətin sabitliyinin təmin olunmasına və ölkənin gələcək inkişafına öz töhfəsini verir.

Sonrakı çıxışlarda Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin edildiyi vurğulanıb, suverenliyin qorunmasında dini, mənəvi həmrəyliyin rolundan bəhs edilib.

Daha sonra tədbir diskussiya şəklində davam etdirilib.

***"XIZI", R.M.***
***12 fevral 2025-ci il***

# Gənclər gələcəyimizdir

**"Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz."**
***Heydər Əliyev, Ümummilli Lider***

**"Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram."**
***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***





Gənclər millətin gələcəyinin, tərəqqisinin özəyidir. Xalqın, dövlətin mövcudluğu üçün sağlam gənclik vacib amildir. Hər bir ölkədə dövlətçiliyin, suverenliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların hazırlığından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır.

Hər il ölkəmizdə 2 Fevral - Gənclər Günü qeyd edilir. Bu əlamətdar tarixi gün Azərbaycan gənclərinə daim diqqət və qayğı ilə yanaşan, onların problemləri ilə bağlı məsələlərin həlli yönündə həyata keçirilən tədbirlərə böyük önəm verən, gənclər siyasətini dövlətin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi qiymətləndirən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Hakimiyyətdə olduğu illərdə gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayan Ulu Öndər gənclərin milli və vətənpərvər ruhda tərbiyələnməsinə xüsusi diqqət göstərmişdir.

Azərbaycanda gənclər siyasəti mahiyyət və keyfiyyət baxımından özünün yeni mərhələsini yaşayır. Dövlət başçısı cənab İlham Əliyev Ümummilli Liderin gənclər siyasətini də layiqincə davam etdirir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsil alması, sosial müdafiyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində aparılan məqsədyönlü işlər, gənclər təşkilatlarının formalaşması üçün yaradılan münbit şərait bu sahəyə göstərilən yüksək diqqətin nümunəsidir.

Prezident İlham Əliyevin 2007-ci ili "Gənclər ili" elan etməsi, gənclərin potensialından ölkəmizin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə imzaladığı dövlət proqramları gənclərə ölkə rəhbəri tərəfindən böyük önəm verilməsinin bir sübutudur.

Hazırda ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin nəticəsidir ki, sosial həyatın bütün sahələrində onlar çoxluq təşkil edirlər. Bu, gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyulan vəzifənin reallaşmasının göstəricisidir. Azərbaycanda gəncliyə dövlət qayğısı uğurlu gələcəyə hesablanan, sağlam və intellektual nəslin formalaşmasına xidmət edən bir siyasətdir.

***

"2 Fevral - Gənclər günü ilə əlaqədar Xızı rayonunda tədbir keçirilib. Xızı Rayon İcra Hakimiyyətinin, YAP Xızı rayon təşkilatının, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı rayonu üzrə gənclərlə iş sektorunun birgə təşkilatçılığı ilə yanvarın 31-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında keçirilmiş tədbirdə rayonun ictimai-siyasi, mədəni, elmi-pedaqoji fəaliyyət sahələrində fərqlənən gənclər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Vətənimizin azadlığı və ərazi bütövlüyümüz uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin Azərbaycan gənclərinə verdikləri xüsusi önəm və dəyərin əhəmiyyəti barədə danışıb. O qeyd edib ki, Ulu Öndərin vaxtilə müəyyənləşdirdiyi dövlət gənclər siyasətinin ölkə rəhbəri tərəfindən uğurla həyata keçirilməsi gənclərin qarşısında duran problemlərin həllinə münasibətin köklü surətdə dəyişməsinə imkan yaradaraq, onları vahid azərbaycançılıq ideologiyası ətrafında daha da sıx birləşdirmişdir.

A.Hüseynov öz çıxışında respublikamızda gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində zəruri tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Sonrakı çıxışlarda gənclərin Vətən və dövlət qarşısında məsuliyyətini dərk etməsi və respublikamızın sürətlə inkişaf edən qüdrətli ölkəyə çevrilməsi prosesinə öz töhfələrini verməyə çalışması diqqətə çatdırılıb.

Qeyd olunub ki, qalib xalqın nümayəndələri olan bugünkü Azərbaycan gənclər dünyada öz intellekti, peşəkarlığı, qəhrəmanlığı ilə tanınır. Onlar həyatın bütün sahələrində qalibiyyət ruhu ilə gələcəyə doğru addımlayırlar.

Çıxışlardan sonra 2 Fevral - Gənclər Gününə həsr olunmuş video-slayd nümayiş etdirilib.

Tədbirin sonunda bir qrup fəal gəncə fəxri fərmanlar təqdim olunub.

***"XIZI", R.M.***
***31 yanvar 2025-ci il***

# Görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin xatirəsi anılıb

*"Müşfiq bir oddur ki, axırda öz-özünü yandıracaq."*
*Hüseyn Cavid*

Hər il olduğu kimi, bu il də yanvarın 6-da müşfiqsevərlər yenə də Xızı rayonunun Sayadlar kəndindəki əbədiləşmiş "Müşfiq ocağı"na - Mikayıl Müşfiq adına Xatirə muzeyinə toplaşdılar. Həyatı və yaradıcılığı ilə nəsillərə örnək olan, gənc ikən mütərəqqi fikirləri, azadlığa, nurlu gələcəyə səsləyən çağırışları ilə dahilik zirvəsinə yüksələn, könülləri fəth edən, faciəli ölümündən 87 il ötsə də belə nəsillərin gözündə, qəlbində hələ də çılğın təbiətli, dağ vüqarlı, coşqun ilhamlı, qorxmaz, cəsarətli, əsl vətəndaş gənc kimi ürəklərdə özünə əbədi abidə quran görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin sözlü-nəğməli ruhu dolaşan müqəddəs məkana təşrif buyurmuşdular bu etibarlı, dilləri sözlə dolu insanlar - müşfiqsevərlər.

Şairlər, yazıçılar, elm və incəsənət adamları, mədəniyyət işçiləri XX əsrin 30-cu illər repressiyasının qurbanı olmuş Mikayıl Müşfiqin Xatirə muzeyinin həyətindəki büstünü ziyarət etdilər, önünə tər gül dəstələri düzdülər və şairin ruhuna dərin ehtiramlarını bildirdilər.

Tədbirdə çıxış edənlər şairin həyat və yaradıcılığından, Azərbaycan ədəbiyyatındakı əvəzsiz rolundan, poeziyasının özünəməxsus çalarlarından söhbət açdılar.

Natiqlər Müşfiqin adının 1930-cu illər sovet totalitar rejiminin repressiya qurbanına çevrilmiş günahsız insanların xatirəsinin rəmzi və nakam şair obrazı kimi xalqın yaddaşında yaşadığını, Azərbaycan poeziyası tarixinə qızıl hərflərlə həkk olunan şeirlərinin - "Ana", "Yenə o bağ olaydı", "Oxu, tar!", "Həyat sevgisi" və s. - bütün nəsillərin dillər əzbəri və şeir xəzinəsinin inciləri sırasında olduğunu vurğuladılar.

Daha sonra tədbir iştirakçıları Xatirə muzeyinə toplaşaraq Mikayıl Müşfiqin həyat və yaradıcılığını əks etdirən eksponatlarla yaxından tanış oldular.

Sonda xatirə şəkli çəkdirildi.

*"XIZI", R.M.*
*6 yanvar 2025-ci il*

*"...Əgər Mikayıl Müşfiq olmasaydı, yeni dövrün Azərbaycan ədəbiyyatı bütöv olmayacaqdı. Əgər Müşfiq olmasaydı, bu ədəbiyyatda onun yeri güllə yarası kimi boş və ağrılı olacaqdı. ...Müşfiq ədəbiyyat tariximizdə də, xalqımızın yaddaşında da, hamımızın qəlbində də otuz yaşlı çılğın, romantik, xəyallar dünyasında qanadlanan bir gənc kimi qalacaq. Ömrümüzün hər çağında alovlu şairin büllur kimi saf, axıcı misralarını xatırlayacaq, nəğmələrini dinləyəcəyik, amma içəri dünyamızda daima onun tükürpədici harayını da eşidəcəyik."*
*Gülhüseyn Hüseynoğlu*



# "Korrupsiya arzuları puç edir" mövzusunda tədbir keçirilib

*"Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bir gün də dayanmır. Bu mübarizənin artıq yaxşı nəticələri var, daha da yaxşı nəticələri olacaqdır. Biz, bu böyük bəlanı ölkəmizdən yığışdırmalıyıq, təmizləməliyik. Elə etməliyik ki, Azərbaycan hər sahədə - həm siyasi, həm iqtisadi, həm də korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə sahəsində nümunə olsun və olacaqdır".*
*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*





**"Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin proritetlərinə uyğun olaraq, ölkədə korrupsiyaya qarşı sistemli mübarizənin aparılması istiqamətində görülən işlərin, həyata keçirilən islahatların və təşkilati tədbirlərin səmərəliliyi yüksəlmişdir. Son dövrlər ərzində dövlət səviyyəsində görülmüş məqsədyönlü işlər korrupsiya və rüşvətxorluğa qarşı fundamental mübarizə başlanılmasının, dövlət başçısının neqativ təzahürlərin tam aradan qaldırılmasına yönəlmiş siyasi iradəsinin qətiyyətlə həyata keçirildiyinin göstəricisidir." - Bu fikirlər "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planının icrası ilə əlaqədar Xızı Rayon İcra Hakimiyyətinin və Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçirilmiş "Korrupsiya arzuları puç edir" adlı tədbirdə səslənmişdir.**

Fevralın 7-də Xızı RİHBA-nın rəsmilərinin, mədəniyyət işçilərinin, Xızı Rayon Polis Şöbəsinin, eləcə də Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı sektorunun əməkdaşlarının iştirakı ilə Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında təşkil olunmuş tədbirdə giriş sözü ilə Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov çıxış etmişdir.

Tarix boyu cəmiyyətlərin üzləşdiyi problemlərdən biri olan korrupsiyanın bu gün də bütün dünya ölkələrində aktual problem olaraq qaldığını, ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərdiyini, iqtisadi və sosial inkişafı ləngitdiyini, əlverişli biznes mühitinin yaranmasına mane olduğunu vurğulayan A. Hüseynov daha sonra korrupsiyaya qarşı mübarizənin mütəşəkkil və ardıcıl şəkildə aparılmasının daim Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu, bu sahədə görülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planlarının qəbul edildiyini vurğulamışdır.

Sonrakı çıxışlarda ölkəmizdə insanların sosial rifahının və vətəndaş məmnunluğunun daha da artırılması üçün aparılan yeni islahatlar nəticəsində şəffaf və ədalətli idarəçilik sisteminin daha da möhkəmləndirilməsi, cəmiyyətdə korrupsiyaya qarşı dözümsüzlüyün gücləndirilməsi ilə bağlı tədbirlərin intensivləşdirilməsi, antikorrupsiya davranış modelinin formalaşdırılması, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi barədə geniş məlumat verilmişdir.

*"XIZI", R.M.*
*7 fevral 2025-ci il*

# Xızıda növbəti qanvermə aksiyası keçirilib





**Talassemiya və hemofiliya xəstəliklərindən əziyyət çəkən insanlara, xüsusilə də uşaqlara yardım etmək və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə yanvarın 31-də Xızı rayonunda qanvermə aksiyası keçirilib.**

Xızı Rayon Mərkəzi Xəstəxanasında təşkil olunmuş aksiyada Xızı Rayon İcra Hakimiyyətinin rəsmiləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri, hüquq-mühafizə orqanlarının, eləcə də rayonda fəaliyyət göstərən digər idarə, təşkilat, müəssisələrin rəhbərləri və əməkdaşları, könüllülər iştirak ediblər.

Qangötürmə prosesi "Respublika Qan Bankı" publik hüquqi şəxsin həkim briqadası tərəfindən həyata keçirilib. Aksiyaçılar, əvvəlcə, tibbi müayinədən keçiblər. Daha sonra donorlardan qan götürülüb.

Aksiyaya qoşulanlar talassemiya və hemofiliya xəstəliklərindən əziyyət çəkənlər üçün qan verməyin xeyirxah iş və vətəndaşlıq borcu olduğunu bildiriblər.

*"XIZI", R.M.*
*31 yanvar 2025-ci il*


Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*




*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h: 33080019442400230124*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 1803*

*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*